Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Noyabr 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

**SON DÖVRLƏR ŞƏRQ-QƏRB NƏQLİYYAT DƏHLİZİ İLƏ AZƏRBAYCAN ƏRAZİSİ ÜZRƏ DAŞIMALAR DAHA DA ARTIB.**

Son dövrlər Şərq-Qərb nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisi üzrə daşımalar daha da artıb. Mərkəzi Asiya ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycan öz sərmayələrini artırır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 6 noyabr 2024-cü il tarixində Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə Görüşündə rəsmi çıxışından**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

2024 İXRAC İCMALI noyabr

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2024-cü ilin yanvar-oktyabr ayları ərzində 20,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2.8 milyard ABŞ dolları təşkil etmişdir

2024-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə **3,5%** artaraq **2,8 milyard** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-oktyabr ayları ərzində yeyinti məhsulları **13,6%** artaraq 803,1 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin 10 ayı ərzində şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları **61,8%** artaraq **35,2 milyon** ABŞ dolları, pambıq lifi **63,9%** artaraq **161,4 milyon** ABŞ dolları, bitki mənşəli yağlar və piylər **29.4%** artaraq **22,8 milyon** ABŞ dolları, kimya sənayesi məhsulları **18,6%** artaraq **237,3 milyon** ABŞ dolları, spirtli və spirtsiz içkilərin ixracı **15,8%** artaraq **59,4 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-oktyabr ayları ərzində aqrar məhsullar **5,7%** artaraq **603,5 milyon** ABŞ dolları, aqrar-sənaye məhsulları **60,3%** artaraq **260,9 milyon**

ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı **17,8%** artaraq **864,4** milyon ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-oktyabr ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**163.4 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (pomidor) (**160,4 milyon** ABŞ dolları) ikinci, tomat (**142 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-oktyabr ərzində Rusiya Federasiyasına **956.7 milyon** ABŞ dolları, Türkiyəyə **477,6 milyon** ABŞ dolları, Gürcüstana **234,6 milyon** ABŞ dolları, İsveçrəyə **168,9 milyon** ABŞ dolları, ABŞ-a isə **118,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2024-cü ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**113 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda İsveçrə (**49.3 milyon** ABŞ dolları) ikinci və Türkiyə (**42.5 milyon** ABŞ dolları) üçüncü olub.

2024-cü ilin oktyabr ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**48,1 milyon** ABŞ dolları) birinci, xurma (**23,8 milyon** ABŞ dolları), meşə fındığı (**23,4 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024
İXRAC İCMALI
noyabr

2023    2024

+3,5%

2,7 mlrd



2,8 mlrd

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN OKTAYBR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024
İXRAC İCMALI
noyabr

2023 | 2024

+23,1%

278,3 mln

342,4 mln

# 2024-CÜ İLİN OKTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)







Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

**(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)**

2024 İXRAC İCMALI noyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**864,4 mln $**

2023/2024 **+17,8%**



2023/2024 **+5,7%**

**603,5 mln $**

**260,9 mln $**

2023/2024 **+60,3%**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN OKTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI noyabr

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Qızıl | 163,4 | 118,7 |
| Pambıq mahlıcı | 160.4 | 98,2 |
| Tomat (pomidor) | 142 | 126,1 |
| Karbamid | 102,2 | 63,6 |
| Meşə fındığı | 94,9 | 94,3 |
| Elektrik enerjisi | 93,6 | 348,1 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 92,7 | 40 |
| PE İlkin formalı propilen sopolimerləri | 87,5 | 79,8 |
| Metanol (metil spirti) | 83,9 | 73,1 |

# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2024-CÜ İLİN OKTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI noyabr

| | 2024 | 2023 |
|---|---|---|
| Qızıl | 48,1 | 16,9 |
| Xurma | 23,8 | 29,6 |
| Meşə fındığı | 23,4 | 15,7 |
| Elektrik enerjisi | 19 | 17,7 |
| Karbamid | 12,2 | 13,1 |
| Nar | 10,8 | 10 |
| Digər yağlar və məhsullar | 9,9 | 3,9 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 9,8 | 6,5 |
| Pambıq lifi | 9,7 | 9,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-oktyabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC, "Silk Vey Vest Aviaşirkəti" MMC, "ASG Business Aviation" MMC, "Baku Steel Company" QSC, Süleymanova Göhər Süleyman qızı, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Atena" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Tabaterra" QSC, "P-aqro" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərenerji" ASC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma zavodu" ASC, "Azəripək" MMC

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**




* “SOCAR Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** “AzərGold” QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 15,4 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə **15,4 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **74%**-ni təşkil edib. 2024-cü ilin oktyabr ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə **1,6 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-oktyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **4.9 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **3,2 milyon** ABŞ dolları ilə Lüksemburq, **781.4 min** ABŞ dolları ilə BƏƏ, **560 min** ABŞ dolları ilə Pakistan, **547,2 min** ABŞ dolları ilə Türkiyə qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-OKTYABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 15,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR





**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Dəyər |
|---|---|
| Birləşmiş Krallıq | 4,9 mln $ |
| Lüksemburq | 3,2 mln $ |
| BƏƏ | 781,4 min $ |
| Pakistan | 560 min $ |
| Türkiyə | 547,2 min $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-oktyabr ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 2.1 milyard manatlıq əməliyyat aparılıb.

2024-cü ilin yanvar-oktyabr aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **2.1 milyard** manat, yalnız oktyabr ayında isə **252.7 milyon** manat dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI noyabr

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 126 | 210 |
| May | 184,1 | 173,4 | 225,8 |
| İyun | 203,6 | 148,6 | 221,7 |
| İyul | 214 | 218,8 | 267 |
| Avqust | 214,6 | 200,9 | 251,4 |
| Sentyabr | 155,5 | 186,2 | 265,2 |
| Oktyabr | 124,4 | 203,6 | 252,7 |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **962,7 mln** | **1,8 mlrd** | **2,2 mlrd** |

* Mərkəzi Bankın təqdim etdiyi statistikası əsasında

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi





İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций


Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat